# Ali Məqamlı Rəhbərin cənab İsfəndiyar Məşayi ilə əlaqədar ölkə prezidentinə ünvanladığı məktub - 25 /Jul/ 2009

İsfəndiyar Rəhim Məşayinin ölkə prezidentinin birinci müavini vəzifəsinə təyin edilməsinin ardınca Ali Rəhbərlik Məqamı Prezidentə ünvanladığı məktubda cənab Məşayinin həmin postdan uzaqlaşdırılması barədə göstəriş vermişdir.

Məktubun tam mətni:

“Allahın adı ilə!

İran İslam Respublikasının möhtərəm prezidenti cənab Əhmədi Nejad,

Sizə öz salamımı və salamatlıq diləklərimi yetirərək bildirirəm ki, cənab İsfəndiyar Rəhim Məşayinin ölkə prezidentinin müavini vəzifəsinə təyin edilməsi Siz – möhtərəm cənab və dövlət üçün məqsədəmüvafiq deyil. Bu, Sizi sevən, Sizi dəstəkləyən insanların arasında ixtilaf yaradıb onları məyus edə bilər.

Buna görə də cənab Məşayinin vəzifə postuna təyini ilə bağlı qərarın ləğv edilməsi və qüvvədə olmadığı barədə elan edilməsi lazımdır”.

*Seyid Əli Xamenei*

25.07.2009